# Marağalı Əvhədinin "Cami-Cəm" poemasında nəsihətlər və onların məzmun dairəsi

**Təranə Yaşar qızı Abdullayeva**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*AMEA-nın Şəki Regional Elmi Mərkəzinin elmi işçisi*
**E-mail:** terane873@gmail.com

**Rəyçilər:** filol.ü.e.d. A.B. Mirzəyev,
filol.ü.f.d., dos. U.B. Mürşidova

**Açar sözlər:** Marağalı Əvhədi, "Cami-Cəm", poema, didaktika, nəsihət
**Ключевые слова:** Марагали Авхади, «Джам-Джам», стихотворение, дидактика, советы
**Key words:** Maragali Avhadi, "Jami-Jame", poem, didactics, advice

XIII-XIV əsrlərin qovşağında yaşayıb-yaradan Marağalı Əvhədi Azərbaycan ədəbiyyatşünaslığında xüsusi yeri olan görkəmli şəxsiyyətlərindən biridir. Sənətkarın ədəbi-bədii irsində, xüsusən də yaradıcılığında əhəmiyyətli yer tutan "Cami-Cəm" poemasında klassik Şərq ədəbi ənənələri həm janr, həm də mövzu və məzmun baxımından özünü göstərir. Belə ki, Şərq ədəbiyyatında geniş yayılan didaktik-nəsihətamiz əsərlər sırasında adı çəkilən "Cami-Cəm" klassik nəsihətnamələrə xas bir çox xüsusiyyətləri özündə daşıyır. Bu iki anlayış – didaktika və nəsihət əksər hallarda, əsasən də ədəbiyyatda eyniləşdirilsə də əslində ikisi arasında incə məna fərqi vardır. Əgər didaktik əsərlərdə öyrətmə, təlim vermə əsasdırsa, nəsihətnamələr daha çox öyüd, məsləhət vermə məqsədi daşıyır. Dilin izahlı lüğətlərində, eləcə də ədəbiyyatşünaslıq lüğətlərində verilən izahlarda bu iki ifadənin fərqini aydın görə bilərik. Məsələn, Azərbaycan dilinin izahlı lüğətində haqqında bəhs etdiyimiz iki anlayış belə izah edilir: *"Didaktika yunan sözü olub, pedaqogikanın təlim və tərbiyə üsullarından bəhs edir..."(1, s. 618), "Nəsihət ərəb sözü olub, öyüd, yol göstərici sözlərdir..."(2, s. 480).*

Bədii ədəbiyyatda qələmə alınan nəsihətnamələrlə, didaktik əsərlər arasında da bu cür fərqlər ortaya çıxır. Burada dövr və təsir məsələlərinin də əhəmiyyətli rolu vardır. Belə ki, Qədim Şərq didaktik-nəsihətamiz əsərləri və onların təsirilə yazılan nümunələr, Orta əsrlərdə xüsusən, sufi görüşlərlə bağlı yaranan, əsasını XIII əsr fars filosof-şairi Fəridəddin Əttarın qoyduğu və onun "Pəndnamə"sinin təsiri ilə qələmə alınan nəsihətnamələr arasında fərq vardır. İkinci qism əsərlər sırf öyüd xarakteri daşıyır və onlarda başdan-başa nəsihət sadalanır, bir növ hikmətamiz fikirlərin, didaktikanın önünə keçən, müxtəlif mövzularda təriqət ideyalarını da özündə əks etdirən öyüdlər verilir və əsasən birbaşa "Nəsihətnamə", "Pəndnamə", "Öyüdnamə" kimi adlandırılır (Fəridəddin Əttar "Pəndnamə"). Onların cümlə quruluşu, daxili strukturu da fərqlənir. Bəzilərində isə nəsihətlə yanaşı əxlaqi fikirlər, hikmətli ifadələr qısa hekayələr, didaktik məsələlərə yer verilir ki, bu da yuxarıda qeyd etdiyimiz yanlış eyniləşdirməyə səbəb olur. Belə əsərlərin kökündə qədim "Pançatantra", "Kəlilə və Dimnə" kimi nümunələr, onların təsiri dayanır.

Marağalı Əvhədinin "Cami-Cəm" poeması da bu cür nümunələrdən olub, içərisində didaktika, hikmətli fikirlər, eləcə də ibrətli hekayələr yer almaqdadır. Nəsihət isə əsərin mahiyyətində özünəməxsus yer tutur və əsasən ikinci fəsildə qabarıq formada öz əksini tapır.

Mürəkkəb daxili quruluşa, mövzu və fikir zənginliyinə malik əsərdə müxtəlif mövzularda nəsihətlər yer almış, bir çox məsələlərə toxunulmuşdur. Hətta ən xırda, bəzən əhəmiyyət verilməyən mövzular da burada işıqlandırılmışdır. Prof. X. Yusifli bu haqda yazır: *"Əvhədi poeması həm qoyulan məsələlərin çoxluğu, həm də onları əks etdirmə metodunun oirjinallığı ilə diqqəti cəlb edir. Əvhədi əksər hallarda elə məsələlərə toxunur ki, biz onları başqa sənətkarlarda görmürük"* (3, s. 5).

Poemada diqqət çəkən məqamlardan biri, yuxarıda sadaladığımız məsələlərin bir-biri ilə qarşılıqlı, iç-içə deyil, hər fəsil və babda ayrı-ayrılıqda qoyulmasıdır. Belə ki, klassik əsərlərə xas ənənəvi girişlə başlayan poema üç fəsildən ibarət olub, birinci fəsil əsasən yaradılış haqqındadır. Burada müxtəlif varlıq və anlayışların - bitki, heyvan, insan və cisimlərin meydana çıxması, əlamətləri haqqında məlumat verilmişdir. Öyüd-nəsihətlər yer almamışdır. Bu baxımdan iki babdan ibarət olan ikinci fəsil daha zəngindir. Xüsusən birinci babda başdan-başa nəsihətlər yer almışdır. İkinci babda isə daha çox müəllifin təsəvvüfi görüşləri öz əksini tapır. Üçüncü fəsil dünyanın sonu, əbədi köklə bağlıdır.

İkinci fəsildə iri və xırda bir çox məsələylə bağlı nəsihətlər verən Əvhədi məzmuna uyğun müxtəlif hekayətlərə də müraciət edir. Burada maraqlı məqamlardan biri odur ki, bəzən hekayət verilir, ardınca nəsihət, bəzi başlıqlarda isə hər hansı məsələ ilə bağlı məlumat, sonra isə nəsihət, daha sonra uyğun hekayət gəlməkdədir.

"Dünya əhlinin yaşayışı" başlıqlı birinci babda adına uyğun olaraq insanın yaşayış tərzi, davranış və hərəkətləri ilə bağlı bir çox öyüdlərə verilir. Dünya malına aludə olmamaq, qurub-yaratmaq, öz əməyi, zəhmətilə dolanmaq, zülm və ədalətsizlikdən uzaq yaşamaq nəsihət olunur. Hər kəsin öz mülkü olduğu və hər bir şəxsin də öz mülkünün hökmdarı olması, bu mülkün tar-mar olmaması üçün ağılla, düzlük və ədalətlə idarə edilməsinin əhəmiyyəti vurğulanır.

Sənə bu mənzili qoyublar abad,
Eylə adlarını yaxşılıqla yad.
Olanlardan yaxşı edə bilməsən,
Yaxşı eyləməyə, cəhd et barı sən.
Sən o gedənlərin halını öyrən,
Yeni bünövrə qoy sonra təzədən.
Bura gözəl yerdir, çalış tikməyə,
Həm öz zəhmətinlə yeyib-geyməyə.
Bu evi ədl ilə tikəsən gərək!
Ədlə üz tutasan əvvəl sən gərək! (3, s. 77).

Əsərdə yer alan nəsihətlər içərisində Əvhədinin şahlara, hökmdarlara verdiyi öyüdlər xüsusi yer tutur. "Padşahlara ədalət haqqında nəsihət" başlıqlı parçada onları vicdan və ədalətlə rəhbərlik etməyə çağırır. Burada ölkəni idarə etmə qaydaları ilə yanaşı, xalqla, qoşunla davranış qaydalarından, düşmənlə münasibətlərin qurulmasına qədər bir çox məsələlər yer alır.

Ey ölkə taxtına olan hökmran!
Haqdan agahsansa, ədl ilə davran.
Şahlıq ədalətlə əgər olsa yar,
Zülm ilə ədavət olmaz payidar (3, s. 78).

*yaxud*

Birləşmək fikrinə düşsə düşmənlər,
Səni məhv etməyə qalxsalar əgər,
Çalış hər birini bir bucağa at!
Gücün çatmayanı oxşa, sülh yarat (3, s. 79).

Bu haqda nəsihət və hikmətləri paylaşdıqdan sonra məzmuna uyğun "Kəsranın zülməti haqqında" hekayətə də yer verən sənətkar hökmdarlara dərs verməyə, onları doğru yola yönəltməyə çalışmışdır.

Ümumiyyətlə, insanların haqq və hüquqları barədə də əsərində geniş mülhizələr yürüdən Əvhədi insana müxtəlif sferalardan yanaşmış, yeri gəldikdə tərəfini saxlamış, yeri gəldikdə isə tənqid etməyə, düzgün yola yönəltməyə çalışmışdır. Fəlsəfə üzrə fəlsəfə doktoru Vahid Ömərov qeyd edir: *"Mütəfəkkir dövlət və qanun kimi mühüm sosial hadisələrin mahiyyətinə münasibət bildirməmişdir. Nəhayət, məsnəvidə beynəlxalq münasibətlərin (müharibə və sülh məsələsi) qismən də olsa işıqlandırılması, onun müəllifinin insanlığın ümumi problemlərinə laqeyd qalmamasının təzahürüdür. Göstərilənlərlə yanaşı, Əvhədi öz əsərində Nizaminin və Tusinin maarifçilik ideyalarını da inkişaf etdirmişdir. Qeyd etmək zəruridir ki, böyük mütəfəkkir toxunduğu bütün problemlərin həllinə sosial ədalət mövqeyindən yanaşmaya üstünlük vermişdir. Görkəmli mütəfəkkir həyatı və yaradıcılığı boyu humanist ideyaların və azadfikirliyin carçısı, insan haqlarının və qanuni mənafelərin müdafiəçisi olmuşdur"* (5).

Bundan başqa, "Cami-Cəm" poemasında xırda, ancaq insan həyatına mənfi təsiri olan çoxlu sayda məsələlərə də toxunan Əvhədi şərab içmək qaydaları, sərxoşluğun mənfi tərəfləri, ev və ev əşyaları, israfçılıq, qonşuluq münasibətləri, ailə qurmaq, düzgün həyat yoldaşı seçmək, övlad böyütmək kimi məsələlərdə saysız nəsihətlərə yer vermişdir. Məsələn, aşağıdakı nümunələrdə bunların bəzilərini nəzərdən keçirək:

Dağarcıqda bəngi, tuluqda meyi,
Ağlın var, dindirmə, bu iki şeyi.
Gəl o dağarcığı, tuluğu həmən
İyli donuza ver, murdar itə sən.
Al şərab varını əlindən alar,
Yaşıl bəng kilimə büküb yırğalar.
Saralar yanaqlar, qaralar ürək,
Kişisən, bu aldan, yaşıldan əl çək! (3, s. 91)

Və ya

Qonşun bilməsən ki, kim olacaqdır,
Ev üçün pul tökmək bil ki, nahaqdır.
Bir mərd və sınanmış qonşu tap ki, sən
Ona qonşu olub ev tikdirəsən (3, s. 96).

Ümumiyyətlə, Marağalı Əvhədi nəsihətə önəm verən, onu yüksək dəyərləndirən bir sənətkar olmuşdur. Bunu poemada nəsihətlə bağlı ayrı bir bölmə ayırmasında da görmək mümkündür. Şair əsərin "Nəsihət etməyin qaydaları" adlı bölmədə nəsihət verməyin üsul və qaydaları, zərərli məqamlarından bəhs edir, nəsihət edən, vaiz oxuyanlara müvafiq öyüdlər verir. Yanlış nəsihətin səhv addımlara, bədbəxtliklərə səbəb ola biləcəyini də göstərir. Əvhədiyə görə, hər kəs məsləhət verə bilməz. İlk öncə nəsihət verən şəxs, vaiz kürsüsünə layiq olmalıdır. Əvhədi bu vaiz kürsüsünü o qədər yüksək tutur ki, hətta Peyğəmbər məqamı adlandırır:

Dad! Bu mənbər döyən boş vaizlərdən!
Utanmır ağacadan, nə də mənbərdən.
Nəsihət insanı etsə pərişan,
Vaiz həyasızdır, həm əsil nadan.
Peyğəmbər yerinə, mənbərə heç vaxt
Füzulluq yoluyla ucalmaq olmaz (3, s. 140).

Vaizin nəsihət verərkən uzunçuluqdan, yorucu nitqdən çəkinməsini tövsiyə edərkən, daxili keyfiyyətlərinə də diqqət çəkərək yazır:

Xalq ilə xeyirxah, mehriban olsun.
Əməli, elmi düz bir insan olsun.
Etməsin dünyada harama rəğbət,
Könlündə olmasın nə mal, nə şöhrət (3, s. 140).

Əsas məsələni isə daxili keyfiyyətlərin əməldə də olmasında, nəsihət verənin əməlinin, niyyətinin, dediyi sözlərlə, verdiyi məsləhətlərlə üst-üstə düşməsində görür. Bütün bunlar olmadan deyilən sözlərin də mənasız, başağrısı olduğunu xatırladır.

Eylə dediyini vaizsən əgər,
Yoxsa başağrısı verdiyin yetər (3, s. 141).

Bölmədə diqqət çəkən maraqlı fikirlərdən biri də Əvhədinin qadınla bağlı düşüncələridir. Qadına nəsihət vermək qaydasından söhbət açarkən məsələyə birtərəfli yanaşan şair qadını orta əsrlərin feodal dünyagörüşü ilə dəyərləndirir. Bu isə Əvhədi yaradıcılınında məhdud cəhətlərdən biridir.

Birgə əyləşdirmə kişi, qadını,
Al əyləşsələrdə qarşılarını
İsmətdən, pərdədən danış qadına,
Başqa bir nəsihət yaramaz ona.
Cavan, gözəl qadın açıq-aşikar,
İncə, şirin olar, can alan olar.
Onun məclislərdə axı nəyi var,
Gəlsə cavanlara, gənclərə baxar (3, s. 141).

Ümumiyyətlə, qadına qarşı münasibət və düşüncələrindəki düzgün olmayan, təzadlı fikirlər əsərdə bir çox məqamlarda görünür. Xüsusilə, elm, təhsillə bağlı düşüncələrində Əvhədinin mövqeyi ilə razılaşmaq mümkün deyil. Bu nöqtəyə diqqət yetirən prof. Xəlil Yusifli haqlı olaraq ədibin bu məsələ ilə bağlı görüşlərini onun yaradıcılığında nöqsanlı məqam kimi qiymətləndirir, qadına münasibət mövqeyində Nizami ilə ayaqlaşa bilməməsini xüsusi vurğulayır. *"Bu görkəmli sənətkarın yaradıcılığında bəzi məhdud cəhətlər də vardır. Məsələn, qadına münasibətdə Marağalı Əvhədi öz böyük sələfi Nizami ilə ayaqlaşa bilmir, ziddiyyətli fikirlər söyləyərək, bu mühüm məsələdə məhdud mövqe tutur. Sağlam ailə qurmaq, qadına hörmət və ehtiram göstərmək haqqında düzgün, maraqlı mülahizələr yürüdən Əvhədi, qadına elm öyrətməyi məsləhət görməyəndə, onun evdə, çadrada yaşatmaq üçün yarandığını söyləyəndə orta*

*əsr feodal dünyagörüşünə güzəştə getmiş olur. Müasir oxucu, əlbəttə, bu gözəl sənətkarın yaradıcılığındakı belə məhdud cəhətləri qəbul edə bilməz" (3, s. 9).*

"Pis qadınların əməlləri", "Hekayət" və "Pis qadına nəsihət" olmaqla ardıcıl üç başlıqda da qadınla bağlı əxlaq, təlim-tərbiyə və təhsil məsələlərinə toxunan Əvhədi öz nəsihətlərinə geniş yer verir. Ümumiyyətlə, Marağalı Əvhədinin nəsihətləri içərisində tərbiyə, əxlaq, müsbət və mənfi xarakterik keyfiyyətləri, ali mənəvi dəyərləri əhatə edən nəsihətlər xüsusi yer tutur. Bu nümunələrdə gözəl davranışın, rəftarın insan həyatına gətirdiyi müsbət xüsusiyyətlərdən bəhs olunur və böyük əksəriyyəti təşkil edir.

Çox tərəddüt etmə, boş gəzmə nahaq,
Kişinin sifəti səbatdır ancaq.
Özünü saxlayan, düz, vəfalı ol!
Səni izləyirlər hər tərəf, sağ-sol (3, s. 152).

*Və ya:*

Ya get kölgə düzəlt qəriblər kimi,
Ya doydur varınla acı, yetimi.
İki-üç alma da çatsa bizlərə,
Xarab olmasından xoşdur yüz kərə.
Nə qədər meyvə var, sən də ver xeyir (3, s. 119).

Bildiyimiz kimi, əksər, əxlaqi-didaktik əsərlərdə, eləcə də təsəvvüf dünyagörüşünün təsiri ilə qələmə alınan nəsihətnamələrdə təriqət ideyaları ilə bağlı anlayışlar - nəfs, tövbə, müridlik, salik, ilahi eşq, susmaq, səbr etmək, təvəkkül, şükr və ənənəvi təriqət ideyaları ilə bağlı müxtəlif nəsihətlər yer alır ki, sözügedən əsərdə də biz bu nümunələrlə kifayət qədər rastlaşırıq. "Cami-Cəm"əsərinin ikinci fəslin, ikinci babı təriqət ideyalarına və onunla bağlı məsələlərin təbliğinə aiddir. Ümumiyyətlə, Marağalı Əvhədinin təriqət və təsəvvüf görüşləri ən geniş şəkildə onun tədqiqatçılarından olan Q. Beqdeli tərəfindən tədqiq olunaraq "Varlıq" jurnalında məqalə şəklində nəşr olunmuşdur. Bununla bağlı filologiya üzrə fəlsəfə doktoru Pərvanə Məmmədli özünün "Klassik irsimizin araşdırılması məsələləri Cənub müstəvisində" adlı məqaləsində yazır: *"Q. Beqdeli XIII əsrin sonu, XIV əsrin birinci yarısında Azərbaycan şerinin inkişafında rol oynamış mütəfəkkir şair Əvhəddi Marağalıya həsr olunmuş "Əvhədi Marağayi"adlı məqaləsində də təsəvvüf problemlərinə toxunur" (12, s. 38-47].*

*Əvhədi Marağalının həyat və yaradıcılığından geniş söhbət açan, onu Nizami ədəbi məktəbinin tanınmış nümayəndələrindən biri kimi təqdim edən Q.Beqdeli şairin təsəvvüflə bağlı görüşlərini diqqət mərkəzinə çəkir. O hələ Bakıda yaşadığı zaman Ə.Marağalı haqqında xüsusi monoqrafiya yazmış, X. Yusifovla birlikdə onun "Cami-Cəm"əsərini hazırlayıb nəşr etmişdir. Sözügedən məqalədə isə Q. Beqdeli Əvhədi Marağalını təriqət ədəbiyyatının qüdrətli nümayəndəsi kimi təqdim edir*" (4, s. 131).

Əvhədinin nəsihətləri içərisində yuxarıda qeyd etdiyimiz anlayışlar xüsusən də nəfs barədə də olduqca maraqlı misraları vardır.

Nəfs ardınca getsən donuqsan, demək!
Nəfsini öldürsən, kişisən, gerçək!
Eyibdir, bu yeyib-yatmağı burax!
Sən yemə, yedirt ki, hünər budur bax! (3, s. 126).

Aparılan tədqiqatdan belə nəticəyə gəlmək olar ki, Klassik Şərq didaktik ənənələri ilə yanaşı, sufi-təsəvvüf dünyagörüşünə xas əlamətləri də özündə ehtiva edən "Cami-Cəm" poeması içərisində zəngin nəsihət örnəklərini daşımaqdadır. Bununla yanaşı, forma, ifadə tərzi baxımından da nəsihətnamələrə (pəndnamələr) məxsus xarakterik xüsusiyyətləri daşıyır. Bütün bunlar bizə imkan verir ki, orta əsrlərdə qələmə alınan nəsihətnamələr sırasında Əvhədinin zəngin dünyagörüşünün və bədii təcrübəsinin məhsulu olan "Cami-Cəm" poemasının da adını çəkək.

**Məqalənin aktuallığı.** Məqalədə tədqiq olunan nəsihət, onun işlənmə formaları, növlərinin öyrənilməsi tərbiyə sisteminin qurulması baxımından əhəmiyyətlidir. Qədim soy kökdən, tərbiyə sistemindən uzaqlaşdığımız müasir zamanda bu məzmunda mövzuların ortaya qoyulması və tərbiyə sisteminə tətbiqi olduqca aktual məsələdir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə "Cami-Cəm" ilk dəfə didaktik cəhətindən daha çox nəsihət, nəsihətçilik yönündən araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə Marağalı Əvhədinin "Cami-Cəm" poemasında işlənən nəsihətlərin dəyərləndirilməsi tərbiyə prosesində əhəmiyyət daşıyır.

## Ədəbiyyat


1. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. I cild. Bakı: Şərq-Qərb, 2006, 744 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. III cild. Bakı: Şərq-Qərb, 2006, 672 s.
3. Marağalı Əvhədi. Cami-Cəm. Bakı: Lider, 2004, 228 s.
4. M. Pərvanə Klassik irsimizin araşdırılması məsələləri Cənub müstəvisində // Elm və İnnovativ texnologiyalar, 2018, № 3 s.126-135.
5. ttps://sesqazeti.az/news/kivdf/536571.html


**Т.Я. Абдуллаева**

## Наставления и их предметная область в произведении Авхади Марагаи "Джаме-Джам"

## Резюми

В статье исследовано произведение одного из выдающихся представителей азербайджанской литературы, жившего и творившего на рубеже 13-14 веков, Авхади Марагаи – "Джаме-Джам". В творчестве Авхади и в указанном произведении особо заметно влияние науки Возрождения Ближнего и Среднего Востока. В связи с этим "Джаме-Джам", занимающий особое место в ряду поучительных дидактических произведений Востока, по тематике и сущности затрагивает многие вопросы, в том числе и наставнические. В статье нашли отражение взгляды автора на наставления и наставленчество, его мнение по этим вопросам, проведены определенные исследования на основе конкретных примеров и фактов. В то же время произведение было привлечено к разработке в качестве примера наставничества и была рассмотрена предметная область, особенности и формы использования этих наставлений.

**T.Y. Abdullayeva**

## About advice ın the poem "Jamı–Jam" by Awhadı Maraghaı


## Summary

The article examines the poem of one of the outstanding representatives of Azerbaijani literature, who lived and worked at the turn of the 13-14 centuries, Avhadi Maraghai – "Jame-Jam". The influence of the Renaissance science of the Near and Middle East is especially noticeable in the work of Avhadi and in this work. This "Jame-Jam", which occupies a special place among the instructive didactic works of the East, touches upon many issues in terms of subject matter and essence, including instructive ones. The article reflects the author's views on instruction and mentoring, his opinion on these issues, certain research based on specific examples and facts, while the work was brought into development as an example of mentoring, and the subject area, characteristics and forms of use of these instructions were considered.


**Redaksiyaya daxil olub:** 01.03.2022